# Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası

# Təhlükəli tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi xidmətlərinin tariflərinin tənzimlənməsi barədə

# Qərar № 3

***Bakı şəhəri, 1 avqust 2014-cü il***

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə»yə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları»na uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **qərara alır:**

1. Xüsusi ayrılmış yerlərdə (poliqonlarda) təhlükəli tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi xidmətlərinin tarifləri ƏDV daxil olmaqla aşağıdakı səviyyədə təsdiq edilsin:

| **№** | **Təhlükəli tullantılar** | **Tarif (manat/$m^3$)** |
|---|---|---|
| **I** | **II** | **III** |
| 1. | Tullantıların yandırılmasından əmələ gələn tüstü külü | 10,0 |
| 2. | Təhlükəli tibbi tullantılar | 10,0 |
| 3. | Digər təhlükəli tullantılar | 80,0 |

2. «Təhlükəli tullantıların (o cümlədən radioaktiv materialların) daşınması, saxlanılması və basdırılması üzrə pullu xidmətlərin tarifləri barədə» Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 25 dekabr 2007-ci il tarixli 26 nömrəli Qərarı ləğv edilsin.

3. Bu qərar 4 avqust 2014-cü il tarixindən qüvvəyə minir.

***Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının sədri***

***Şahin MUSTAFAYEV***

*© «VneshExpertService» LLC*